Xalq qəzeti 2020.- 31 dekabr.- S.6.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 514** **Bakı şəhəri, 29 dekabr 2020-ci il**

***"Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və istismarı üçün xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 1.13 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq və Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin səmərəli istismarını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və istismarı üçün xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 57; 2008, № 2, maddə 125; 2013, № 8, maddə 1024; 2016, № 10, maddə 1724, № 11, maddə 1972; 2017, № 6, maddə 1238, № 11, maddə 2140; 2018, № 1, maddə 139; 2020, № 6, maddə 795) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissəsində "istismarı" sözü "təmiri" sözü ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və istismarı üçün xərclənməsi Qaydaları" üzrə:

2.1. adında, 3.1-ci bəndində, 3.1.1-ci, 3.1.2-ci və 3.1.3-cü yarımbəndlərində ismin müvafiq hallarında "istismarı" sözü ismin müvafiq hallarında "təmiri" sözü ilə əvəz edilsin;

2.2. 1.2-ci bənddə "səmərəli istismarını və qənaətbəxş vəziyyətdə saxlanılmasını" sözləri "səmərəli istismarı üçün onların saxlanılmasını və təmirini" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***